# Qəbələnin sosial-iqtisadi inkişafı möhkəm zəminə söykənir

## 2019-cu ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin hesabat MƏRUZƏSİ

(Əvvəli 7-ci səhifədə).

edilməsi, dərəcəli idmançıların hazırlanmasından ibarət olmuşdur.

İl ərzində Qəbələ Stend Atıcılığı Kompleksində Yeniyetmələrin XII Respublika Oyunlarının proqramına daxil olan güllə atıcılığı üzrə zona yarışı, "Tayboks" üzrə yeniyetmələr arasında Azərbaycan birinciliyi, "Gənc xilasedici" VII Beynəlxalq yarışı və "Gənc xilasedici və yanğınsöndürən" VIII Ümumrespublika birinciliyi, Qaydasız Döyüş Növləri üzrə Beynəlxalq Turnir və s. keçirilmişdir.

Ötən il "Qəbələ" futbol klubu ilk dəfə Azərbaycan kubokunun sahibi olmuş və bu münasibətlə şəhər stadionunda böyük təqdimat mərasimi təşkil olunmuşdur.

"Qəbələ Olimpiya İdman Kompleksi" MMC-də 2019-cu il ərzində idmanın inkişaf etdirilməsi, olimpiya hərəkatının genişləndirilməsi, gənclərin müntəzəm şəkildə idmana cəlb olunması, əhalinin bütün təbəqələri arasında sağlam həyat tərzinin formalaşdırılması və s. ilə bağlı tədbirlər keçirilmişdir.

Hesabat dövrü ərzində kompleksin xidmətlərindən istifadə edənlərin orta sayı 927 nəfər olmuşdur. Bir günlük xidmətlərdən istifadə edənlərin orta sayından 352 nəfəri ödənişli əsasla, 575 nəfəri ödənişsiz əsasla kompleksin xidmətlərindən istifadə etmişlər.

Kompleksdə Olimpiya idman növü olan sərbəst güləş üzrə ödənişsiz seksiya fəaliyyət göstərir ki, bu seksiyada 25 nəfər məktəb yaşlı uşaq idmanla məşğul olur.

2018-2019-cu tədris ilində Qəbələ Dövlət Peşə Təhsil Mərkəzini bitirən məzunların sayı 185 nəfər, II kursa keçən tələbələrin sayı isə 110 nəfər olmuşdur.

Məktəbə dövlət büdcəsi hesabına 171 nəfər, ödənişli əsaslarla 88 nəfər tələbə qəbulu aparılmışdır. Tədris ilində 16 ixtisas üzrə 21 qrupda 369 nəfər tələbə olmuşdur. Avropa İttifaqının pilot layihəsi olaraq mərkəzdə 4 ixtisas üzrə kadr hazırlanmasına başlanılmışdır.

Modul tipli təhsil proqramları ilə təhsil alan tələbələr modullar üzrə rayonun iri aqrar təsərrüfatlarında iş və istehsalat təcrübəsinə göndərilmişlər.

Ötən dərs ilindən etibarən təhsil mərkəzi lisey statusu ilə fəaliyyət göstərməyə başlamışdır. Hazırda 3 illik təhsil proqramları üzrə qəbul olunan tələbələr məktəbi bitirərkən peşə-ixtisası ilə yanaşı, həm də tam orta təhsil haqqında attestat ala biləcəklər. Bu da məzunların ali məktəblərə qəbul üçün imtahanlarda iştirakına imkan yaradır.

Bu tədris ilində işəgötürənlərlə iş sahəsində mərkəzin fəaliyyəti daha da gücləndirilmişdir. Belə ki, rayonda fəaliyyət göstərən özəl sahə üzrə işəgötürənlərlə əməkdaşlıq barədə memorandum imzalanmış və tələbələrin istehsalat təliminin və təcrübəsinin təşkili üçün onlarla müqavilələr bağlanmışdır. Artıq "Gilan Aqriculture" paketinə daxil olan cəmiyyətlərin əksəriyyətində məktəbin məzunları çalışırlar.

Alman Beynəlxalq Əməkdaşlıq Təşkilatı mərkəzdə kənd təsərrüfatı və turizm sahəsində dual peşə təhsilinin və təliminin tətbiqi sahəsində işlər aparır.

Turizm və otelçilik üzrə peşə tədris mərkəzini bu il 208 nəfər bitirmişdir. Onların 20 nəfəri ümumi orta təhsil bazasından, 188 nəfəri isə tam orta təhsil bazasındandır. Təhsil müddəti iki il olan qrup aşpaz, təhsil müddəti bir il olan qruplar isə mehmanxanada təsərrüfat işləri üzrə nəzarətçi, kompüter operatoru, aşpaz, ofisiant, barmen, bufetçi, oteldə konsiyerj, tədbir və mərasimlərin təşkili işi üzrə təşkilatçı, turizm agenti, qənnadçı, şirniyyatçı peşələrinə yiyələnmişlər.

Buraxılış qrup şagirdlərinin istehsalat təcrübəsinin təşkili və keçirilməsi məqsədi ilə sifarişçi təşkilatlarla müqavilələr bağlanaraq tələbələrin hamısı istehsalat təcrübəsinə göndərilmişlər.

> *Qəbələdə iqtisadiyyatın sürətli inkişafı rayonda işsizliyin aradan qaldırılmasına, insanların həyat səviyyəsinin yaxşılaşdırılmasına müsbət təsir göstərir.*
>
> **İlham ƏLİYEV.**



*Vəndam qəsəbəsində inşa edilmiş yeni məktəb binası ilə tanışlıq.*

Son zamanlar təhsil sahəsində baş vermiş yeniliklər bir daha göstərir ki, peşə təhsili sisteminə diqqət getdikcə artmaqdadır və əmək bazarı, iqtisadiyyatın və müasir qloballaşma prosesinin tələbləri bu sahəni inkişaf etdirməyə zərurət yaradır. Hazırda peşə-ixtisas təhsili və təlimi ciddi islahat mərhələsindədir. Belə ki, 2019-2020-ci tədris ili üçün şagird qəbulu "ASAN Xidmət" tərəfindən "ASAN Peşə" layihəsi vasitəsilə aparılmışdır.

Azərbaycan iqtisadiyyatı ildən-ilə güclənir. Yeni-yeni müəssisələr, zavod və fabriklər yaranır, turizm sahəsi genişlənir, kənd təssərrüfatı, tikinti sektoru sürətlə inkişaf edir. Bütün bunlar ixtisaslı fəhlə kadrların yetişdirilməsinə diqqəti artırmağı tələb edir.

Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin fəaliyyət imkanlarından Milli QHT-lər faydalanmışlar. Mərkəz əhatə dairəsində olan 12 rayonda fəaliyyət göstərən koordinasiya mərkəzləri ilə mütəmadi əlaqələr yaratmış və rayon koordinatorları ümumi işə səfərbər edilmişdir. 2019-cu il ərzində Mərkəzin əhatə etdiyi 12 rayondan hər bir koordinator R-QRTM-in həyata keçirdiyi layihələrə cəlb olunmuşdur. Mərkəzlə il ərzində 20 milli QHT əməkdaşlıq edərək vətəndaş cəmiyyətinin inkişafına xidmət edən layihələr həyata keçirmişlər.

Kiçik və Orta Biznesin Dostları şəbəkəsinə Qəbələ və ətraf rayonlar üzrə 38 vətəndaş və 118 sahibkar müraciəti olmaqla ümumilikdə 156 müraciət daxil olmuşdur. Bu müraciətlərdən 83-i maliyyə resurslarına çıxış xarakterli, 63 müraciət hüquqi yardımla əlaqədar, 10 müraciət isə ümumi maarifləndirmə istiqamətində olmuşdur. Bütün müraciətlərə baxılmış və bunlardan 64-ü müsbət həllini tapmış, digər müraciətlər isə aidiyyəti üzrə istiqamətləndirilmişdir.

2019-cu ildə Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzində aktiv terapiya məşğələsi, psixoloji konsultasiya, inkişafetdirici məşğələ, loqopedik məşğələ, dil məşğələsi, rəqs məşğələsi və s. xidmətlər göstərilmişdir. Ümumi-




*Vəndam qəsəbəsində yeni inşa edilmiş məktəbdə müəllimlərlə xatirə şəkli.*

(Ardı 9-cu səhifədə).